

Nigar Yunus
sənətşünas

# Şahanə rəssam - şahın özüymüş...

Nəsirəddin şah rəssam, zərgər, şair və fotoqraf idi

...Qacar dövləti özünün maraqlı və təkrarolunmaz tarixi ilə sözsüz ki, yadda qalandır. Bu sülalə 1796-1925-ci illər arasında İranda hökmranlıq etmiş Azərbaycan-türk sülaləsiydi. Bu dövləti müxtəlif dövrlərdə 7 şah idarə edibdir: Ağa Məhəmməd şah Qacar, Fətəli şah, Məhəmməd şah, Nəsirəddin şah, Müzəffərəddin şah, Məhəmmədəli şah və Sultan Əhməd şah Qacar. Təsviri sənət tarixində bu hökmdarlardan ikisinin - Fətəli şah və Nəsirəddin şahın adı daha maraq doğurur. Məlumdur ki, Fətəli şah Qacar öz hökmranlığı dövründə (1797-1834) rəssamlığa olduqca böyük maraq göstərmiş, saray rəssamlarına həmişə diqqət ayırmaqla, hətta rəngkarlığın (yağlı boyanın) sirlərini öyrənməkdən ötrü onları Avropaya da göndərmişdi. XIX əsr Qacar rəngkarlığında bu şahın mükəmməl portretləri sənət dünyasında əvəzolunmazdır.

Bəhs olunacaq şəxsiyyət - 4-cü Qacar hökmdarı Nəsirəddin şah Qacardır. Nəsirəddin Mirzə Məhəmməd şah oğlu Qacar 1831-ci ildə Təbriz şəhərində dünyaya gəlmişdi. Mükəmməl saray təhsili görmüş Nəsirəddin Mirzə atası Məhəmməd şah vəfat etdikdən sonra, 1848-ci ildə 17 yaşında taxta çıxdı. O, 48 illik hakimiyyəti dövründə möhtəşəm sənət əsərlərinin yaradılmasına bilavasitə səbəbkar oldu. Nəsirəddin şah poeziya, rəssamlıq, zərgərlik və foto maraqlısıydı. Çəkdiyi fotolar, müəllifi olduğu rəngkarlıq və zərgərlik əsərləri Qacarlar tarixində "ilklərə" imza atmışdır desək, yəqin ki, yanılmarıq.

Nəsirəddin şahın yaratdığı rəngkarlıq əsərinə bariz nümunə - indiyəcən də gizli qalan və naməlum adla tanınan yağlı boya ilə işlənmiş əsərdir. Bu möhtəşəm tablonun müəllifi və adı qeyri-təvazökar səslənsə də, bu yazının müəllifi, - mənim tərəfimdən aşkarlanıbdır. Apardığım araşdırmalar nəticəsində məlum oldu ki, XIX əsrə aid edilən naməlum rəssama məxsus "Avropa zövqlü gənc qadın" adlı rəngkarlıq (yağlı boya) tablosunda əslinə qalsa Nəsirəddin şah Qacarın ən sevimli həyat yoldaşı Anis Əl-Doleh təsvir edilmişdir. Bu rəngkarlıq əsəri elə Nəsirəddin şahın özü tərəfindən fırçaya alınıb, köməkçi vasitə kimisə şahın özünün çəkdiyi fotoşəkildir. Maraqlıdır ki, hər iki amil - həm tablo, həm də fotonun müəllifi incəsənət tarixində bu vaxta qədər "naməlum" kimi qeydə alınıb. Lakin fotoşəkildəki qadının simasından onun şahın zövcəsi - Anis Əl-Doleh (Fatimə sultan) olduğu bəllidir, həmçinin şəkildə qadının sinəsi çılpaq vəziyyətdə fotonu çəkən kəs olmasından belə zənn etmək caizdir ki, o hər kimdirsə məhrəm adamdır. Güman yalnız bircə nəfərin üstündə dayanır - Nəsirəddin şahın... Bəli, məncə gümanımızda yanılmamışıq. Çünki qeyd etdiyim kimi, şəriətə görə, qadınların məhrəm yerlərini həyat yoldaşlarından özgəsi - yəni naməhrəm görə bilməzdi. Araşdırmalar zamanı, sözü gedən fotonu Gülüstan sarayının Multimedia Sənədlər mərkəzində gördüm. Həmin fotonun aşağı hissəsində ərəb əlifbası ilə "Anes Əl-Doleh" yazılmışdı. Nəsirəddin şahın bu zövcəsi Anis Əl-Doleh əslən gürcü olsa da, İranın Mazandaran əyalətində doğulmuşdu. Həmin sinəsi açıq vəziyyətdə çəkilən fotoda o, cavan yaşlarındadır. Qeyd edim ki, Gülüstan sarayının fotomərkəzində Anis Əl-Dolehin və digər zövcələrin açıq sinəli fotolarından biri deyil, bir neçəsi saxlanır...



Taxta çərçivəli rəsm əsəri janr etibarilə bütöv fiqur-portretlərdən hesab olunur və ölçüsü 152x78 sm.-dir. Tablo olduqca poetik tərzdə fırçaya alınıbdır... Nəzərə çatdıraq ki, Nəsirəddin şahın şeir yazması da bu rəngkarlıq əsərinə təsirsiz ötüşməyib. Tabloda təsvir olunan qadının kimliyini ortaya çıxarmağıma Nəsirəddin şah Qacarın özünün çəkdiyi ağlı-qara fotoşəkil səbəb oldu. Həmin fotoşəkillə bəhs etdiyim yağlı boya əsərində oxşayış və gözə çarpan uyğunluq kifayət qədərdir.

Ağlı-qara fotoşəkildə qadının baş geyimi və ona bənd olunmuş sallanma bəzəklər diqqəti cəlb edir. Eləcə də qadının boynundakı sinəbəndlər öz görkəmiylə seçilir. Eyni ayrıntıları "naməlum rəssam"ın tablosunda da sezirik. Hətta şah zövcəsinin sinə bəzəklərinə diqqətlə nəzər yetirsək, orda, tam mərkəzdə muncuqlardan asılan bir medalyonu görə billik, hansı ki, tablodakı qadının sinəsindəki bəzəkdə də girdə medalyon özünə yer alır. Və bu kulon-medalyon təsvir edilən qadının sırğaları, başında saçına bərkidilən eqret-sancaq və geyimindəki bir neçə xırda bəzəklərlə yəqin ki, dəstdir. Bizə səhih xəbər verən, ehtimalı bərkidən ikinci ayrıntı isə Nəsirəddin şahın ən sevimli xanımı sayılan Anis Əl-Dolehin əksidir və məhz sözü gedən həmin fotodan köçürülmədir.

Şahın dövründə ilk saray fotoqrafı kimi tanınan rus mənşəli Anton Sevryuqin olsa da, Nəsirəddin şah hərəminin bir çox fotolarını özü çəkərdi. Gülüstan sarayının Multimedia Sənədlər Mərkəzində onun fotosənətkarlığının ən gözəl sübutları indiyəcən qalır.

Zərgərlik sənəti sahəsində isə şahın bir yox, bir neçə quraması mövcuddur ki, onlardan da 3-ü mənim elmi-tədqiqi araşdırmalarımın nəticəsidir. Belə ki, XIX əsrə aid edilən üç zərgərlik əşyasının - nəciblikdə bir-birinə çox bənzəyən iki eqret-sancaq və şahın özünün olan firuzə qaşlı nadir eqretin məhz Nəsirəddin şahın öz əlindən çıxan sənət əsəri olduğu fikrindəyəm. Brilliant və sapfirdən işlənmiş qızıl eqret XIX əsrə aiddir. Nəsirəddin şahın zövqündə olan digər zərgərlik nümunələrindən biri elə Nəsirəddin şahın hakimiyyət illərinə aid (1848-1896) brilliant qaşlardan və iki zümrüddən ibarət qızıl eqretdir. Bundan öncə qeyd etdiyimiz kimi qızıl eqretlə bu eqret forma baxımından xeyli oxşardır, bu da əşyanın eyni adamın təxəyyül bəhrəsi olduğuna dəlalət edir. Belə düşünməyimə başlıca səbəb isə bizə məlum olan "Günəş ordeni"dir ki, "Neşane-aftab" adı ilə məhz Nəsirəddin şah Qacarın özü tərəfindən əsası qoyulmuşdur. Yaradılması 1873-cü ilə aid edilən bu ordenin dizaynını şahın özü çəkmiş və onun sifarişi ilə araya-ərsəyə gətirilmişdir. Ordenin üst forması günəşin saçaqlarını simvolizə edir, hansı ki, bu Günəşin şüaları Qacar dövlətinin siyasi emblemində, gerb və bayrağında da öz əksini tapıb. Təbii olaraq bu rəmz dövlətin həmin siyasi atributundan götürülərək zərgərlik əşyasına əlavə edilmişdir. Qeyd etdiyim iki eqretdə də bu nişanəni görmək mümkündür: eqretin yuxarı hissəsində mərkəzə qədər kəsilmiş günəş və onun şüalarının bədii təsviri; Zərgərlikdə məhz bu ideya, bu dizayn Qacarlar dekorativ tətbiqi sənəti üçün xarakterik idi və bu yenilik məhz Nəsirəddin şahın mükəmməl zərgərlik təxəyyülü sayəsində qazanılıbdır.





XIX əsrin 4-cü rübündə yaradılan daha bir zərgərlik məmulatı Nəsirəddin şah Qacarın firuzə və brilliant qaşlı qızıl eqretidir. Məncə, unikal görkəmə malik, bu məşhur zərgərlik əsərinin dizaynı da şahın özünündür. Kiçik ölçülü zərgərlik nümunəsinin təsvirinə fikir verək: əldə qılınc sağda-solda dayanmış iki şir, arxada günəşin saçaqları, alt hissənin mərkəzində farsca epiqrafik yazı, tam yuxarıda isə yenə də günəşin saçaqları və tovuz quşunun quyruğundakı lələkləri xatırladan metal çıxıntılar... Həmin çıxıntıların üzərindəki firuzə qaşda Nəsirəddin şahın portretləri həkk olunub. Həmin eqret hazırda İran Mərkəzi Bankının Milli Cəvahirat Xəzinəsində saxlanılır.

Tarixdə "ilk şəhid olan Qacar şahı" adı ilə yadda qalan Nəsirəddin şah 1896-cı ildə Tehranda Şah Əbdüləzim məscidində namaz qılarkən Mirzə Rza Kirmani tərəfindən qətlə yetirilib....